# NAFTALAN




*Naftalan Şəhər İcra Hakimiyyətinin orqanı*

*www.naftalan-ih.gov.az*

Qəzet 1992-ci ilin fevral ayından nəşr edilir • № 7-8 (423) • 31 mart 2020-ci il • Qiyməti 90 qəpik




## Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və bahar əhval-ruhiyyəsi arzulayıram.

Milli varlıq və mənəviyyat xəzinəsi olan Bahar bayramı müdrik əcdadlarımızın bugünkü nəsillərə misilsiz yadigarıdır. Kainatın dəyişməz ahəngi və əbədi qanunları ilə bağlı bu el bayramı zamanın sınaqlarından çıxmış çoxəsrlik mədəniyyətimizin parlaq təcəssümüdür. Novruz ənənələri dəyərlər sistemimizdə müstəsna yer tutmuş, xalqımızın təfəkkürünün ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Cəmiyyət üzvləri arasında qarşılıqlı ünsiyyətə çağırması, səmimiyyəti gücləndirməsi və yüksək əxlaqi keyfiyyətlər formalaşdırması onu ən ali insani xüsusiyyətlərin daşıyıcısı kimi ümumbəşəri mədəni sərvətlər sırasına daxil etmişdir.

Bahar bayramı keçmişimizin ən çətin dövrlərində belə zehinlərdən silinməyib gələcəyə inamımızı sarsılmağa qoymamışdır. Qəlbimizin dərinliklərində kök salaraq milli özünüdərk məfkurəsini yaşatması sayəsində o, ötən əsrin sonlarına doğru Azərbaycanda müstəqil dövlətçilik ideallarının gerçəkləşməsini təmin edən mühüm amillərdəndir. Mənəvi mədəniyyətimizin zənginliklərini özündə toplamış qədim Novruz mərasimlərini qloballaşmanın vüsət aldığı, sürətlə dəyişən dünyada bütün rəngarəngliyi ilə layiqincə qoruyub saxlaması müasir Azərbaycanın tarixi-mədəni və milli-mənəvi irsə bağlılığının rəmzidir.

Yazın gəlişi onun yeniləşdirici ovqatına uyğun, yurdumuzun hər bir guşəsində aparılan genişmiqyaslı quruculuq-abadlıq işləri və insanlarımızın rifahını əsaslı surətdə yaxşılaşdıran çoxsaylı nailiyyətlərlə səciyyələnir. Bizimlə birgə baharı azərbaycançılıq düşüncəsi işığında minlərlə soydaşımız ölkəmizin hüdudlarından uzaqlarda qarşılayırlar. Həmrəyliyimizin rəmzi olaraq bu ümumxalq bayramı qoy hər bir ailəyə bol sevinc və ruzi-bərəkət bəxş eləsin.

Hamınızın əziz Novruz bayramınız mübarək olsun!

## AZƏRBAYCAN RESPUBLİKASINDA ƏHALİNİN SAĞLAMLIĞININ QORUNMASI VƏ KORONAVİRUS İNFEKSİYASINA QARŞI MÜBARİZƏNİN GÜCLƏNDİRİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması, dünya standartlarına uyğun tibbi yardımla təmin olunması ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Son aylarda dünyada yayılan yeni növ koronavirus infeksiyasının coğrafiyasının genişlənməsi ölkəmizdə də bu xəstəliyə yoluxma hallarının qarşısının alınması məqsədilə müvafiq preventiv və profilaktik tədbirlərin gücləndirilməsini zəruri edir. Bu məqsədlə, əhalinin müxtəlif təbəqələrinin, o cümlədən sahibkarlıq subyektlərinin bu növ tədbirlərə dəstək verməsi, sosial həmrəylik nümayiş etdirməsi görülən işlərin səmərəliliyinə bilavasitə təsir edən xüsusi əhəmiyyətli məsələlərdən olmaqla, korporativ sosial məsuliyyəti, dövlət-vətəndaş birliyini əks etdirən əsas faktorların bariz göstəricisidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə koronavirus infeksiyasına qarşı preventiv addımlar atılması və mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə qərara alıram:

1.Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılsın.

2."Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

3.Müəyyən edilsin ki, Koronavirusla Mübarizəyə Dəstək Fondunun məqsədi koronavirus infeksiyasının Azərbaycan Respublikasında yayılmasının qarşısını almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarətdir.

4.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 19 mart 2020-ci il.**

## Naftalan şəhər İcra Hakimiyyəti başçısının "Novruz bayramı" münasibətilə şəhər sakinlərinə təbriki



Əziz naftalanlılar!

Sizi xalqımızın milli bayramı olan və tarixi minillərlə ölçülən Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə bahar təravətli günlər, cansağlığı, xoşbəxtlik və süfrənizin daim ruzi-bərəkətli olmasını arzu edirəm. Bu əziz bayramın qədim ənənələrinin bütün rəngarəngliyi ilə qorunub saxlanılması Azərbaycan xalqının öz tarixi, mədəni keçmişinə yüksək ehtiramını və milli-mənəvi dəyərlərə dərin bağlılığını nümayiş etdirir.

Ölkəmizin bugünkü inkişafında misilsiz xidmətlər göstərən ölkə rəhbəri möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində kurort şəhərimiz gündən-günə gözəlləşir, yenilənir və artıq beynəlxalq turizm məkanına çevrilib.

Hörmətli naftalanlılar, dünyada geniş yayılan koronovirus infeksiyasından özünüzü və ətrafınızı qorumaqla, evinizdə, ailənizdə xoş əhval-ruhiyyə ilə Novruz bayramı keçirmənizi diləyir və sizlərə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə günbəgün inkişaf edən ölkəmizdə firavan həyat arzu edirəm.

Bahar bayramınız mübarək olsun!

**Dərin hörmətlə,**
**Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov**

## AZƏRBAYCAN RESPUBLİKASINDA KORONAVİRUS İNFEKSİYASINA QARŞI HƏYATA KEÇİRİLƏN SƏHİYYƏ TƏDBİRLƏRİ ÜÇÜN KORONAVİRUSLA MÜBARİZƏYƏ DƏSTƏK FONDUNA VƏSAİT AYRILMASI HAQQINDA

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və onunla mübarizə istiqamətində səhiyyə tədbirlərinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Koronavirusla Mübarizəyə Dəstək Fonduna ilkin olaraq 20,0 (iyirmi) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 19 mart 2020-ci il.**

# Baş Nazir Əli Əsədov mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və dövlət qurumlarının rəhbərlərinə xüsusi rejimdə iş normalarına dair təlimatları imzalayıb

**Təlimatda deyilir:**

Koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizənin təşkili məqsədilə aşağıdakıların təmin edilməsi və icrasına ciddi nəzarət olunması Sizə tapşırılır:

1. İclasların, müşavirələrin və toplantıların yalnız telefon (selektor) rabitəsi, mobil və internet rabitəsi vasitəsilə keçirilməsinə üstünlük verilsin;

2.Mümkün olduğu halda, əməkdaşların məsafədən işləmələri məsələsinə baxılsın;

3. 60 yaşdan yuxarı şəxslərin və öhdəsində azyaşlı uşağı olan qadınların iş davamiyyətinə güzəştli şərtlər tətbiq edilsin;

4.İşçilərin və onların ailə üzvlərindən birinin qrip, soyuqdəymə, halsızlıq və digər bu kimi halları olduğu təqdirdə həmin işçilərin işə çıxması qadağan edilsin;

5. Xüsusi zərurət olduğu hallar istisna olmaqla, bütün ezamiyyətlər dayandırılsın. Ezamiyyətə xüsusi zərurət olduğu hallarda, razılıq alınması məqsədilə dövlət orqanlarının və qurumlarının rəhbərləri tərəfindən operativ qərargaha əsaslandırılmış rəsmi müraciət edilsin;

6. Əməkdaşların xarici ölkələrə şəxsi səfərləri məhdudlaşdırılsın;

7. Vətəndaş qəbulu ilə əlaqədar aşağıdakı qaydalara riayət edilsin:

7.1.qəbul otağında vətəndaşların qrup və fərdi surətdə qəbulları təxirə salınsın;

7.2. yerlərdə səyyar qəbulların keçirilməsi təxirə salınsın;

7.3.vətəndaşların müraciətlərinin fasiləsiz qəbulu yalnız elektron və telefon rabitəsi vasitəsilə həyata keçirilsin, bu məqsədlə hər orqan və qurumda elektron və telefon əlaqə ünvanları və nömrələri müəyyən edilsin, habelə qaynar xətlərin fasiləsiz fəaliyyəti təmin edilsin;

7.4.vətəndaş müraciətlərinin yalnız elektron və telefon vasitəsilə qəbul edilməsi məqsədilə hər orqan və qurumda məsul əməkdaşlar müəyyən edilsin;

7.5. mümkün olduğu halda, vətəndaşlara səyyar xidmətlərin göstərilməsi təşkil edilsin;

7.6. görülən tədbirlər barədə vətəndaşların məlumatlandırılması təmin olunsun;

7.7. mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət qurumları vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla yanaşsınlar.

8.Əməkdaşlara sosial məsuliyyətli davranmaları, xüsusi zərurət olmadan digər şəxslərlə təmasda olmamaları və virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq hər cür ehtiyat tədbiri görmələri tapşırılsın.

9.Yuxarıda qeyd olunan müddəalar hüquq mühafizə və hərbi xidmət orqanlarına, dövlət əhəmiyyətli və həyat təminatlı obyektlərə, fasiləsiz iş rejimində fəaliyyət göstərən müəssisələrə, səhiyyə və digər tibb müəssisələrinin işçilərinə şamil edilmir.

# 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə YAP könüllüləri şəhid ailələrini ziyarət edib



YAP Naftalan şəhər təşkilatının könüllüləri şəhid ailələrinə baş çəkərək şəhid ailələrinin xanım üzvlərini 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik ediblər.

Könüllülər şəhid analarının qəhrəman oğulları haqqında xatirələrini dinləyib və şəhid ailələri ilə xatirə şəkilləri çəkdiriblər.

Gənclərin gəlişindən sevinc hissi keçirən şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə, möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevaya sonsuz təşəkkürlərini bildiriblər.

**REDAKTORDAN**

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı və Millət vəkili Novruz bayramı münasibətilə şəhid ailələrini təbrik edib



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və Millət vəkili Anar Məmmədov Novruz Bayramı münasibətilə görüntülü olaraq telefonla şəhid ailələrini təbrik etmiş, bu bayramın Azərbaycan xalqının ən əziz bayramı olduğunu bildirmiş, şəhidlərimizi, onların ailə üzvlərini hər zaman diqqət mərkəzində saxlamağın və şəhid adını uca tutmağın hər bir kəsin vətəndaşlıq borcu olduğunu vurğulamışlar. Daha sonra şəhər rəhbəri və Millət vəkili ölkəmizin ərazi bütövlüyünün qorunması naminə canlarını fəda edərək şəhidlik zirvəsinə ucalmış qəhrəman Vətən övladlarına Tanrıdan rəhmət diləmişlər.

Nümayəndələr tərəfindən şəhid ailələrinə bayram hədiyyələri təqdim edilmiş və bildirilmişdir ki, şəhid ailələrinin sosial vəziyyətinin və maddi rifahının yaxşılaşdırılması möhtərəm cənab Prezident İlham Əliyevin və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir.

**Ülfət ƏLİYEV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalan şəhəri ərazisində koronavirusla mübarizə ilə bağlı kütləvi profilaktik tədbirlər görülür



Azərbaycan Respublikası Baş Nazirinin 16 mart 2020-ci il tarixli məktubunun icrası ilə əlaqədar koronavirus infeksiyasına qarşı mübarizənin təşkil edilməsini təmin etmək məqsədilə Naftalan Şəhər İcra Hakimiyyətində vətəndaşların qrup və fərdi surətdə qəbula gəlmələri təxirə salınaraq görüşlərin keçirilməsi müvəqqəti olaraq məhdudlaşdırılıb, yerlərdə səyyar görüşlərin keçirilməsi təxirə salınıb.

Hazırda şəhər sakinləri tərəfindən Naftalan Şəhər İcra Hakimiyyətinin rəhbərliyinə və məsul şəxslərinə internet üzərindən və telefon rabitəsi ilə müraciətlərin edilməsi üçün İcra Hakimiyyətinin rəsmi saytında və facebook sosial şəbəkəsində yerləşdirilmiş əlaqə vasitələri təqdim edilmişdir. Vətəndaşlar heç bir problem olmadan həmin elektron vasitələr və telefon rabitəsi ilə əlaqə saxlaya bilirlər.

Şəhər sakinləri müraciətlərini eyni zamanda Naftalan Şəhər İcra Hakimiyyətinin rəsmi saytındakı elektron müraciətlər bölməsindən (www.naftalan-ih.gov.az) və rəsmi e-mail (mail@naftalan-ih.gov.az) vasitəsilə də birbaşa ünvanlaya bilirlər.

Naftalan şəhəri ərazisində koronavirusla mübarizə məqsədilə Şəhər İcra Hakimiyyəti başçısı tərəfindən müvafiq sərəncam imzalanmışdır. "Naftalan şəhəri ərazisində koronavirus infeksiyasına qarşı mübarizənin təşkil edilməsi haqqında" İcra Hakimiyyəti başçısının sərəncamına əsasən işçi qrupu yaradılmış və şəhər üzrə mübarizə tədbirlərinin təşkili İşçi qrupuna həvalə olunmuşdur.

Naftalan şəhərində mütəmadi olaraq həyata keçirilən geniş miqyaslı tədbirlər sırasında ərazinin sanitar vəziyyətinin yaxşılaşdırılması, əhalinin sağlamlığının qorunması, yoluxucu xəstəliklərə qarşı profilaktik tədbirlərin görülməsi vacib yer tutur. Eyni zamanda turistlərin çox olduğu üçün həm də ictimai yerlərdə dezinfeksiya işləri mütəmadi olaraq aparılır.

Şəhər ərazisində yerləşən bütün idarə, müəssisə, təşkilat və təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə Şəhər icra Hakimiyyətinin təşkilatçılığı ilə şəhər Gigiyena və Epidemiologiya Mərkəzi və Dezenfeksiya idarəsi tərəfindən geniş-miqyaslı profilaktik tədbirlər həyata keçirilib. Şəhərin tam orta məktəbləri, uşaq bağçası, idman və mədəniyyət obyektləri, marşrut avtobusları və dayanacaqlar, avtomobil yolları,banklar və bankomatlar tam dezinfeksiya olunmuşdur.

Həmçinin şəhərin ərazidəki konteyner meydançalarında yoluxucu xəstəliklərin profilaktikası məqsədi ilə gəmiricilərə, həşəratlara və xəstəlik törədən mikroorqanizmlərə qarşı birdəfəlik kütləvi deratizasiya, dezinseksiya və dezinfeksiya işləri aparılır. Kütləvi tədbirlərin aparılması zamanı təhlükəsizlik qaydalarına tam əməl olunur.

Hazırda şəhərin bütün çoxmənzilli yaşayış binalarının bloklarında, liftlərdə, şəhərin yolları xüsusi maye ilə yuyulur və dezinfeksiya işləri aparılır. Eyni zamanda əhali üçün binaların bloklarının giriş hissələrinə Ümumdünya Səhiyyə Təşkilatının, Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrini əks etdirən elanlar vurulub.

**REDAKTORDAN**

# "Sağlamlığımız milli həmrəyliyimizdədir" adlı aksiya Naftalan şəhərində də yüksək fəallıqla davam etdirilir



Yeni Azərbaycan Partiyası Naftalan şəhər təşkilatının könüllüləri bu nəcib aksiya çərçivəsində aztəminatlı ailələrin üzvlərinə, tənha və kimsəsizlərə tibbi spirt, maska, əlcək və digər tibbi ləvazimatlar paylayıblar. Onlar həmçinin vətəndaşlara bir daha gigiyena qaydalarına riayət olunmasının əhəmiyyətini çatdırıb, özlərinin və yaxınlarının müəyyən edilmiş qayda və tövsiyələrə əməl edərək sağlamlıqlarını qorumalarının vacibliyini xatırladıblar.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

**Əminəm ki, biz dünyanı bürümüş, pandemiya halına çevrilmiş bu xəstəliyə qarşı birlikdə mübarizə aparacağıq və bu mübarizə öz nəticəsini verəcəkdir.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Milli Məclisin deputatı Anar Məmmədov: "Koronavirus pandemiyasının iqtisadiyyatımıza təsirlərinin minimallaşdırılması Azərbaycan hökuməti üçün hədəf olaraq müəyyənləşib"



İnsana qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Prezident İlham Əliyevin apardığı siyasətin mühüm prinsiplərindəndir. Ölkə başçısının rəhbərliyi ilə uğurlu sosial siyasətin həyata keçirilməsi ilk növbədə belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Cənab Prezident hər zaman öz çıxışlarında vurğulayıb ki, layiqli sosial - iqtisadi siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq.

Son günlərdə isə koronavirus pandemiyasının iqtisadiyyatımıza təsirlərinin minimallaşdırılması Azərbaycan hökuməti üçün hədəf olaraq müəyyənləşib. Azərbaycan dövləti bu gün koronavirusla bağlı yarana biləcək mümkün risklərin aradan qaldırılması, eyni zamanda ölkə əhalisinin zərər çəkməməsi üçün bütün resursları səfərbər edir. Çünki Azərbaycan vətəndaşının rifahı, onun sağlamlığının və təhlükəsizliyinin qorunması hər zaman Azərbaycan dövlətinin başlıca prinsipi olub.

İqtisadiyyat nazirinin rəhbərliyi ilə İşçi qrupun sahələrin zərər çəkməsini üç dərəcədə qiymətləndirməsi onu deməyə imkan verir ki, belə yanaşma dəstək proqramının ədalətliliyi və ünvanlılığı, habelə resursların səmərəli istifadəsi baxımından əhəmiyyətlidir. Aydın məsələdir ki, koronavirusun təsirlərinin minimumlaşdırılması ilə bağlı həyata keçirilən məhdudlaşdırıcı tədbirlər fərqli sektorlarda, xüsusən turizm, xidmət, ictimai iaşə, nəqliyyat və loqistika sektorlarında çalışan sahibkarların fəaliyyətinə mənfi təsir göstərir. Bu baxımdan yeni fondun formalaşmasında məqsəd sahibkarlara və vətəndaşlara dəyən ziyanın minimumlaşdırılması, onlara dövlət dəstəyinin daha da gücləndirilməsidir. Sahibkarlara dəyən ziyanın qiymətləndirilməsi ilə bağlı yaradılan işçi qrup fərqli sahələrdə çalışan sahibkarların fəaliyyətinə mənfi təsirlərin minimumlaşdırılması ilə bağlı fəaliyyət göstərir. Bu gün koronavirus pandemiyasının geniş coğrafiyada yayılması və bütün dünyada qlobal böhranın getdikcə geniş vüsət alması nəticəsində ölkə iqtisadiyyatında yarana biləcək qlobal risklərin maksimum şəkildə azaldılması istiqamətində hökümətin dəstək proqramı zərərçəkən 4 sektoru və 20 fəaliyyət istiqamətini əhatə edəcək. Xüsusən də 44 min sahibkarı və 304 min muzdlu işçini əhatə edən proqramın reallışdırılması ilk növbədə Azərbaycan hökumətinin öz vətəndaşına verdiyi dəyər və qiymətin bariz nümunəsidir. Beləliklə bu fəaliyyət proqramının uğurla icrası üçün dövlətimiz bütün mümkün vasitələrdən istifadə edir və atılan addımların yaxın gələcəkdə daha çox səmərə verəcəyini artıq indidən proqnozlaşdırmaq olar.

# Milli Məclisin deputatı Anar Məmmədov: Əfv sərəncamı respublikamızın humanizm prinsipləri əsasında inkişaf yolu seçdiyini bir daha nümayiş etdirdi

Demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının təmin olunmasına və müdafiəsinə diqqətlə yanaşan Azərbaycan hakimiyyəti cəmiyyətdə humanizm ənənələrinin təşəkkül tapmasına və möhkəmlənməsinə də hər zaman həssaslıqla yanaşmışdır. Məhz Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra demokratikləşmə ilə yanaşı, cəmiyyətimizin bütövlüyünə xidmət edən humanizm ənənələrinin təməli qoyulmuşdur. Azərbaycanda Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldiyi dövrdən başlayaraq humanizm siyasəti daim davam etdirilir. Heydər Əliyev hakimiyyətə gələn kimi ölüm hökmünə moratorium qoydu. O dövrdən başlayaraq heç kimə ölüm hökmü tətbiq olunmadı və sonradan ümumiyyətlə ölüm hökmü ləğv edildi. Ulu öndərin dövründə də, cənab Prezident İlham Əliyevin dövründə də dəfələrlə amnistiya və əfv sərəncamları imzalanıb ki, bu aktlar da xeyli sayda insana şamil olunub. Çünki Heydər Əliyevin siyasətində həmişə humanizm prinsipi əsas prioritet olub və bu gün də o prinsiplər davam etdirilir.

Bu gün isə növbəti əfv Sərəncamının yeni növ koronavirus (COVİD-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65 - dən yuxarı olan 176 nəfər insana şamil olunması Azərbaycan vətəndaşının sağlamlığına və təhlükəsizliyinə göstərilən diqqət və qayğının növbəti təzahürüdür. Çünki Azərbaycan hökuməti hər zaman öz vətəndaşının yanında olur, insan amilini prioritet məsələ kimi diqqət mərkəzində saxlayır.

Ölkə başçısının son əfv Sərəncamı respublikamızın humanizm prinsipləri əsasında inkişaf yolu seçdiyini bir daha nümayiş etdirdi. Hər zaman penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və alternativ cəza üsullarının tərəfdarı olan İlham Əliyev bir daha göstərdi ki, həyata keçirdiyi siyasətə bütün hallarda sadiqdir. Bu Sərəncamla əfv olunanlar isə dövlətin onlara etimadını doğrultmalı, azadlığın qədrini qiymətləndirməli, layiqli vətəndaş kimi cəmiyyət həyatına öz töhfələrini verməlidirlər.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın Məlumatı

Martın 23-də Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyi ilə iclas keçirilib. İclasda ölkədə koronavirus infeksiyası ilə bağlı vəziyyət müzakirə edilib və infeksiyanın yayılmasının qarşısının alınması məqsədilə xüsusi rejim tətbiq edilməsi haqda qərar qəbul edilib. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın bununla bağlı məlumatında deyilir:

Dünyada yayılmış koronavirus (COVİD-19) pandemiyası ilə mübarizədə müxtəlif ölkələrin təcrübəsini nəzərə alaraq, əhalinin sağlamlığının qorunmasını ali məqsəd kimi qəbul edərək, koronavirus infeksiyasının ölkədə yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Sanitariya-epidemioloji salamatlıq haqqında Qanununun 25-ci maddəsinə əsasən Azərbaycan Respublikasında 24 mart 2020-ci il saat 00:00-dan etibarən 20 aprel saat 00:00-dək xüsusi karantin rejimi elan edilir.

Bu müddət ərzində:

1. 65 yaşdan yuxarı insanlara evdən çıxmaq qadağan edilsin. Bu kateqoriyadan olan tənha yaşayan şəxslərə qanunvericiliyə əsasən sosial xidmətlərin göstərilməsi təmin edilsin.

2. Xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla, Bakı şəhəri, Sumqayıt şəhəri və Abşeron rayonuna giriş və çıxış məhdudlaşdırılsın.

3. Mülkiyyət növündən asılı olmayaraq, ölkə üzrə rayon və şəhərlərarası sərnişindaşınma fəaliyyəti dayandırılsın.

4. Azyaşlı uşaqları olan ailələr, yaşlılar, tibbi yardıma ehtiyacı olan şəxslər və qadınlara üstünlük verməklə, müəyyən olunmuş qrafik çərçivəsində xaricdə olan Azərbaycan Respublikası vətəndaşlarının 14-21 gün ərzində məcburi karantin rejimində yerləşdirməklə xüsusi çarter reysləri ilə Azərbaycana gətirilməsi təmin edilsin.

5. Bakı Nəqliyyat Agentliyi metro stansiyaları arasında müəyyən edilmiş marşrut əsasında saat 06:00-22:00 arası xüsusi ekspress avtobus xətlərini tətbiq etsin. Sərnişinlərə tövsiyə edilsin ki, metrodan istifadə minimuma endirilsin, yerüstü nəqliyyatdan istifadəyə üstünlük versinlər.

6. İctimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və sair yerlərdə şəxslərin 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağan edilsin.

7.İnsanlararası təmaslarda vətəndaşlar tərəfindən 2 metrlik məsafənin saxlanılması tövsiyə edilsin.

8. İctimai iaşə müəssisələrinə yeni iş rejimi tətbiq olunsun: müştərilərə yerində xidmət vaxtı saat 12.00-15.00 arası müəyyən edilsin, evə götürmə, çatdırma və onlayn satışlara məhdudiyyətsiz icazə verilsin;

9. Nəzdindəki supermarketlər, ərzaq mağazaları və apteklər istisna olmaqla, ölkə ərazisində ticarət mərkəzlərinin və "Mall"arın fəaliyyəti dayandırılsın;

10.Ərzaq mağazalarının, apteklərin və digər həyat əhəmiyyətli obyektlərin fəaliyyəti təmin edilsin.

11.Xüsusi karantin rejimin tələblərinin icrasına nəzarət Azərbaycan Respublikasının Daxil İşlər Nazirliyinə həvalə edilsin.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Operativ Qərargah bütün əhalidən evdə qalmağı, özünütəcrid şəraitinə riayət etməyi, koronavirus xəstəliyi üçün xarakterik simptomları hiss edən şəxslərə 103 və ya 15-42 nömrəli qaynar xəttlərə zəng etməyi ciddi tövsiyə edir.

# Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı xüsusi karantin rejiminin tələblərinin riayət edilməsi vəziyyəti ilə tanış olub

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına uyğun olaraq Naftalan şəhərində xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar epidemioloji normalara qeyd-şərtsiz əməl olunması üçün zəruri tədbirlərin görülməsi davam etdirilir.

Şəhər ərazisində xüsusi karantin rejiminin tələblərinin riayət edilməsi vəziyyəti ilə yaxından tanış olub, Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və Polis şöbəsinin rəisi Zaur Bədəlov sakinlərlə profilaktik söhbətlər edib, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə onlara Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərar və qaydalara əməl etmələri, eləcədə həm öz sağlamlıqlarını, həm də koronavirus infeksiyasının yayılmasının qarşısını almaqdan ötrü xüsusi karantin rejimi müddətində zərurət olmadıqca evdən çıxmamaları barədə xəbərdarlıq ediblər.



Bundan əlavə, şəhər ərazisindəki bütün istirahət parkları lentlərlə bağlanılaraq giriş məhdudlaşdırılıb, o cümlədən sakinlərin əyləşməsi üçün nəzərdə tutulan oturacaqlardan, söhbətgahlardan istifadəyə qadağa qoyulub. Eyni zamanda, şəhər ərazisində gündəlik olaraq dezinfeksiya işləri davam etdirilir.

**Aynurə NOVRUZOVA,**
**Naftalan şəhər İcra hakimiyyəti başçısı aparatında sənədlərlə və vətəndaşların müraciətləri ilə işin aparıcısı**

# Naftalanda əhali arasında koronavirusa yoluxma hallarını minimuma endirmək məqsədilə profilaktik tədbirlər davam etdirilir



Xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsi məqsədi ilə Naftalan şəhəri ərazisində əhalinin sıx toplaşdığı ərazilərdə fərdi izahetmə-xəbərdarlıq işlərinin aparılması məqsədilə yaradılan mobil qruplar şəhərin müxtəlif küçələrində, parklarda karantin rejiminin tələblərinə əməl etməyən vətəndaşlarla fərdi söhbətlər aparır, vətəndaşları xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsinə dəvət edirlər.

Həmçinin polis əməkdaşları binaların qarşısında və məhəllələrdə səsgücləndiricilər vasitəsi ilə vətəndaşları ehtiyac olmadıqda evdən çıxmamağa, xüsusi karantin rejiminin digər tələblərinin yerinə yetirilməsinə çağırır.

Şəhər sakinlərinin daha sıx olduğu yerlərdəki mövcud oturacaqlar yığışdırılıb, binaların həyətindəki söhbətgahlara və parklara giriş məhdudlaşdırılıb.

Bütün təbliğat, maarifləndirmə dezinfeksiya və digər zəruri işlərin görülməsi gün ərzində davam etdirilir.

**REDAKTORDAN**

# Naftalanda əhalinin sıx olduğu yerlərə baxış keçirilib



Dünyada yayılmış koronavirus (COVİD-19) pandemiyası ilə mübarizədə müxtəlif ölkələrin təcrübəsini nəzərə alaraq, əhalinin sağlamlığının qorunmasını ali məqsəd kimi qəbul edərək, koronavirus infeksiyasının ölkədə yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə məqsədyönlü, təxirəsalınmaz tədbirlər həyata keçirilir.

O cümlədən, bu infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı Naftalan şəhəri ərazisində sanitariya-gigiyena norma və qaydalarına riayət edilməsinə ciddi nəzarət edilir.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və Polis şöbəsinin rəisi Zaur Bədəlov şəhər ərazisinə baxış keçirmiş, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə bir daha şəhər sakinlərini şəxsi gigiyena qaydalarına əməl etməyə, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmağa, insanların sıx toplaşdığı yerlərə getməməyə və Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə ciddi riayət etməyə çağırıblar.

Əraziyə baxış zamanı yaşı 65-dən yuxarı olan sakinlərlə şəxslərə Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarı barədə məlumat verilərək xüsusi karantin rejimi müddətində həm öz sağlamlıqlarını qorumaları, həm də koronavirus infeksiyasının yayılmasının qarşısını almaqdan ötrü evdən çıxmamaları barədə xəbərdarlıq edilib.

Bununla yanaşı polis əməkdaşları tərəfindən səs gücləndiricilərlə vətəndaşlara xüsusi karantin rejimində müəyyən olunmuş qayda və tövsiyələrə riayət olunmasının vacibliyi barədə ətraflı məlumat verilib.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

# Naftalan Şəhər İcra Hakimiyyəti tərəfindən bir qrup əlil və ahıl insanlara yardım olunub



Koronavirus infeksiyasının sürətlə yayılma təhlükəsini nəzərə alaraq ölkəmizdə elan olunmuş xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq, Naftalan şəhərində profilaktik tədbirlərlə yanaşı sosial tədbirlərdə həyata keçirilir.

Naftalan Şəhər İcra Hakimiyyətinin əməkdaşları tənha yaşayan ahıl vətəndaşların və bir qrup əlilin evinə baş çəkib, onlara ərzaq və tibbi ləvazimatlar (tibbi spirt, maskalar və əlcəklər) yardımı və kommunal xidmətlərin ödənilməsinə köməklik göstəriblər.

Görüşlərdə vətəndaşlara infeksiyanın sürətlə yayılma riski və törədə biləcəyi fəsadlar barədə ətraflı məlumatlar verilib, onlardan xüsusi karantin rejiminin tələblərinə və sanitar-epidemioloji normalara ciddi əməl etmələri tövsiyyə edilib.

Vətəndaşlar göstərilən diqqət və qayğıya görə, eləcədə, ölkəmizdə və Naftalanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə görülən tədbirlərə görə cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

**Rəhim MURADOV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunda aparıcı məsləhətçi**

# Naftalan ŞİH-nin təşəbbüsü ilə onlayn Yoqa məşğələləri - Evdə qal, sağlam qal!




www.naftalan-ih.gov.az naftalan_ih

Dünyada yayılmış koronavirus (COVİD-19) pandemiyası ilə mübarizədə müxtəlif ölkələrin təcrübəsini nəzərə alaraq, əhalinin sağlamlığının qorunmasını ali məqsəd kimi qəbul edərək, koronavirus infeksiyasının ölkədə yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə məqsədyönlü, təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Eləcə də, Naftalan şəhərində əhalinin maariflendirilməsi və əhali arasında koronavirusa yoluxma hallarını minimuma endirmək məqsədilə müxtəlif maarifləndirici sosial video-çarxlar hazırlanır və tədbirlər görülür.

Əsas məqsəd isə əhalinin diqqətini Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə tətbiq edilən sosial izolyasiya qaydalarına yönəltmək, insanları zəruriyyət olmadığı halda evdən çıxmamağa səsləməkdir.

Fiziki sağlamlığın möhkəmləndirilməsi, immunitet sisteminin gücləndirilməsi və bədəninin bütün orqanlarına faydalı təsir göstərilməsi istiqamətində yoqa məşq hərəkətləri təşkil ediləcəkdir. Yoqanın insan psixikasına müsbət təsiri hələ əsrlər əvvəl aşkar edilmişdir.Yoqa ilə məşqə yaş məhdudiyyəti qoyulmur.

Onlayn dərslər həftənin II, IV və VI günləri saat 09-00 və 19-00-da keçiriləcək.(Naftalan Şəhər İcra Hakimiyyətinin rəsmi internet saytında, facebook və instagram səhifələrində ,youtube kanalında, Gəncə TV-də, Azxəbər İnformasiya Agentliyinin resuslarında izləyə bilərsiz.)

Layihənin əsas məqsədi vətəndaşların evdə qaldıqları müddət ərzində idmandan, sağlam həyat tərzindən uzaq düşməmələridir.

Evdə qal çağırışına əməl etməklə karantin şəraitində evdə qalan əhalini fürsətdən istifadə etməyə və idmanla məşğul olmağa çağırırıq.

Sosial layihə Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə həyata keçirilir.

**#Evdəqal**

**REDAKTORDAN**

# Naftalan şəhərində xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsi məqsədi ilə profilaktik tədbirlər davam etdirilir



Xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsi məqsədi ilə Naftalan şəhəri ərazisində əhalinin sıx toplaşdığı ərazilərdə fərdi izahetmə xəbərdarlıq işlərinin aparılması məqsədilə yaradılan mobil qruplar şəhərin müxtəlif küçələrində, parklarda karantin rejiminin tələblərinə əməl etməyən vətəndaşlarla fərdi söhbətlər aparır, vətəndaşları xüsusi karantin rejiminin tələblərinin yerinə yetirilməsinə dəvət edirlər.

Həmçinin polis əməkdaşları nəqliyyat vasitələri ilə binaların qarşısında və məhəllələrdə səsgücləndiricilər vasitəsi ilə vətəndaşları ehtiyac olmadıqda evdən çıxmamağa, xüsusi karantin rejiminin digər tələblərinin yerinə yetirilməsinə çağırırlar.

Şəhər sakinlərinin daha sıx olduğu yerlərdəki mövcud oturacaqlar yığışdırılıb, binaların həyətindəki söhbətgahların girişləri lentlər vasitəsilə bağlanıb, ictimai-iaşə obyektlərinin işinə nəzarət gücləndirilib.

Nazirlər Kabineti yanında Operativ Qərərgahın rayonlararası və şəhərlərarası nəqliyyat hərəkətinin tam dayandırılması ilə əlaqədar müvafiq Qərarına əsasən polis əməkdaşları tərəfindən şəhərin giriş-çıxış hissələrində postlar qurulub, təcili-tibbi yardım, qəzabərpa, xilasedici, kənt təsərrüfatı, sosial xidmət məqsədli, həmçinin yük avtomobillərinin hərəkəti istisna olmaqla, nəqliyyatın hərəkəti məhdudlaşdırılıb.

Bütün təbliğat, maarifləndirmə dezinfeksiya və digər zəruri işlərin görülməsi gün ərzində davam etdirilir.

**#EVDƏQAL**

**Aşağıdakı QAYNAR XƏTT nömrələri ilə əlaqə saxlaya bilərsiniz.**

**Naftalan Şəhər İcra Hakimiyyəti**
**Tel: (022) 352-14-37**
**Naftalan şəhər Mərkəzi Xəstəxanası PHŞ**
**Tel: (022) 352-16-24**
**ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun Naftalan şəhər şöbəsi**
**Tel: (022) 352-30-55, 352-25-53**

**Ülfət ƏLİYEV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalanda xüsusi karantin müddətində həftəlik onlayn-kouç sessiyaları keçiriləcək

Master Coach Azerbaijan

www.naftalan-ih.gov.az naftalan_ih anar.m.goranboy_naftalan

Naftalan şəhərində əhalinin maariflendirilməsi və əhali ara- sında koronavirusa yoluxma hallarının minimuma endirilməsi məqsədilə müxtəlif maarifləndirici sosial videoçarxlar hazırlanır və müvafiq tədbirlər görülür.

Əsas məqsəd əhalinin diqqətini Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına qeyd-şərtsiz əməl etməyə yönəndirməkdir.

Naftalan Şəhər İcra Haki- miyyətinin və Milli Məclisin deputatı Anar Məmmədovun təşəbbüsü ilə həyata keçirilən daha bir sosial layihəyə "Master Coach Azerbaijan" beynəlxalq kouçinq və mentorinq məktəbi də qatılıb.

"Master Coach Azerbaijan" məktəbinin təsisçisi və biznes-layf kouçu Səbinə Rəhimova bildirib ki, layihənin əsas məqsədi vətən- daşların evdə qaldıqları müddət ərzində sağlam həyat tərzindən və yüksək mənəvi durumdan uzaq düşməmələridir. S.Rəhimova "evdə qal" çağırışına əməl etməklə karantin şəraitində evdə qalan əhalini fürsətdən istifadə etməyə, sağlam həyat və düşüncə tərzinə daha həssaslıqla yanaşmağa çağırıb.

Qeyd edək ki, bu məqsədlə hazırlanan və təqdim olunacaq çarxlarda "üç təsir zonası", "emosional intellekt", "karantində vaxtın səmərəli idarə olunması" kimi mövzular açıqlanacaq. Bu mövzularda əsas məqsəd əhaliyə faydalı və tətbiq edilə biləcəyi məlumatları paylaşmaqdır.

Diskussiyaların həftənin I, III və V günləri saat 11.00-da keçirilməsi nəzərdə tutulub. (Naftalan Şəhər İcra Hakimiyyətinin rəsmi internet saytında, facebook, instagram səhifələrində, youtube kanalında və Azxəbər İnformasiya Agentliyinin resuslarında izləyə bilərsiz.)

#Evdəqal

# Naftalanda koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə profilaktik tədbirlərin həyata keçirilməsi gücləndirilmiş iş rejimində davam etdirilir



Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına uyğun olaraq Naftalan şəhərində xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar epidemioloji normalara qeyd-şərtsiz əməl olunması üçün zəruri tədbirlərin görülməsi davam etdirilir.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov şəhər Polis şöbəsinin rəisi Zaur Bədəlovla şəhər ərazisində olaraq karantin rejiminin və şəhərdə giriş-çıxışın məhdudlaşdırılması məqsədi ilə yaradılmış postlarda mövcud durum ilə maraqlanıb.

Vətəndaşlara bir daha karantin rejiminin qaydalarına riayət olunmasının əhəmiyyəti çatdırılıb, özlərinin və yaxınlarının müəyyən edilmiş qayda və tövsiyələrə əməl edərək sağlamlıqlarını qorumalarının vacibliyi xatırlanıb.Həmçinin Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə sakinlərə dəst olaraq-tibbi spirt, maska və əlcək paylanılıb.

**Ülfət ƏLİYEV,**
**Naftalan Şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalanda 65 yaşdan yuxarı tənha şəxslərə evlərində sosial xidmət göstərilir



Azərbaycan Respublikasının Prezidenti cənab möhtərəm İlham Əliyevin tapşırıqlarına əsasən ölkəmizdə koronavirus infeksiyasının (COVİD-19) yayılmasının qarşısının alınması məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilməsi ilə əlaqədar olaraq, Naftalan Şəhər İcra Hakimiyyəti tərəfindən Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi bütün tədbirlərin şəhər ərazisində həyata keçirilməsi ciddi nəzarətə götürülüb, sanitar-dezinfeksiya işlərinin aparılması təmin olunub, əhalinin maarifləndirilməsi işləri davam etdirilir.

DSMF-nin Naftalan Şəhər Şöbəsinin əməkdaşları tərəfindən 65 yaşdan yuxarı tənha yaşayan şəhər sakinlərinə sosial-məişət xidmətləri, o cümlədən ev təsərrüfatı ilə bağlı işlərdə, əsas tələbat mallarının, dərman vasitələrinin alınmasında, kommunal ödənişlərin edilməsində və başqa işlərdə gündəlik lazımi köməklik göstərilir. Bu günədək 65 yaşdan yuxarı tənha yaşayan şəhər sakini sosial xidmətə götürülüb və lazımi işlərdə koməklik göstərilib.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

# Naftalan Şəhər İcra Hakimiyyəti Başçısı aparatı işçiləri üçün təşkil edilən kurs onlayn qaydada davam etdirilir







Naftalan Şəhər İcra Hakimiyyətinin başçısının təşəbbüsü ilə Şəhər İcra Hakimiyyəti Başçısı aparatı işçilərinin bilik və bacarıqlarının artırılması istiqamətində təşkil olunmuş 3 aylıq ekspress ingilis dili kursunda tədris olunan dərslər onlayn qaydada davam etdirilir.

Xatırladaq ki, kurslarda əsasən Şəhər İcra Hakimiyyəti Başçısı aparatının gənc əməkdaşları iştirak edir.

Gələcəkdə rus dili kursunda təşkil olunması nəzərdə tutulmuşdur.

**Aytən ƏLİYEVA,**
**"Naftalan" qəzetinin redaktoru**

# 31 mart - tarixi yaddaşımızdan silinməyən soyqırımı




Son iki yüz ildə Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, faciələr və soyqırımları, müsibətlərlə dolu səhifələr də yazılıb. Bu dəhşətli hadisələrdən biri 1918-ci ilin mart-aprel aylarında yaşanmışdı. Sovet hakimiyyəti dövründə təxminən 70 il xalqın qan yaddaşını silməyə aramsız cəhdlər göstərilsə də, bu, mümkün olmadı və nəhayət, həqiqət anı yetişdi.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. İndi uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər bir-bir açılır. Ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

Şamaxıda 1918-ci ilin mart-aprel aylarında öldürülənlərin sayı, bəzi məlumatlarda bu rəqəmin 7 min, bəzilərində 8-12 min, hətta 40 min olduğu göstərilir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılan Fövqəladə İstintaq Komissiyasının sənədlərində 1918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasında azərbaycanlılar yaşayan 58 kəndə ermənilərin hücumu zamanı 3632 kişinin, 1771 qadının, 956 uşağın vəhşicəsinə öldürüldüyü qeyd olunurdu. Lakin ekspertlərin digər arxiv sənədləri əsasında apardıqları hesablamalara görə, Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlı qətlə yetirilib. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın, 1277 nəfəri uşaq olub. Digər bir mənbədə isə Şamaxının 72 kəndində ermənilərin 7 min nəfəri, o cümlədən 1653 qadın və 965 uşağı öldürdüyü bildirilir. Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kəndin 86-sının erməni təcavüzünə məruz qaldığı təsdiqlənib. Komissiya öz işini dayandırdığından digər 34 kənd haqqında məlumat toplamaq mümkün olmayıb.

Şamaxıda 1918-ci ilin mart-aprel aylarında öldürülənlərin sayının dəqiqləşdirilməsi ilə bağlı ötən əsrin 90-cı illərindən etibarən yerli tədqiqatçılar da bir sıra araşdırmalar aparıblar. Onların tədqiqatı nəticəsində (yüz nəfərə yaxın şahiddən toplanan xatirə və məlumatlar) müəyyən edilib ki, erməni cinayətkarları - S.Şaumyan, S.Lalayev, Z.Arestisyan, T.Əmirov və A.Əmiryan qardaşlarının rəhbərliyi ilə Şamaxı şəhərində təqribən 14-16 min, onun 40 kənd və obasında 6-8 min nəfər qətlə yetirilib. Şamaxı qəzasından didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olub.

Bakıda təkcə bir həftə ərzində 12 mindən çox insan, əksəriyyətini dinc sakinlər təşkil edən və əsas etibarilə müsəlman əhali vəhşicəsinə qətlə yetirilmişdi. Bolşevik-daşnak dəstələri hətta azərbaycanlılara həlak olmuş yaxınlarını dəfn etməyə icazə vermirdi. Onlar cəsədləri yanan binalara atır, quyulara, dənizə tökürdülər. Bakıda Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin tam hakimiyyətinin bərqərar olması qurbanların dəqiq sayının hesablanmasına imkan vermədi. Lakin İranın Bakıdakı konsulu Məhəmməd Səid-ol Vesarə Marağeyinin yazdığına görə, təkcə onun yaratdığı xüsusi komissiya tərəfindən Bakının küçə və həyətlərindən 5000-dən çox müsəlmanın meyiti toplanmış və dəfn olunmuşdu. Menşeviklərin "Naş qolos" qəzeti həmin günləri belə təsvir edirdi: "Hər tərəf meyitlərlə doludur - yanıb kül olmuş, doğranmış, eybəcər hala salınmış meyitlər…".

Ulu öndər Heydər Əliyevin tarixi Fərmanından ötən illər ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar və sənədlər toplanıb, Quba şəhərində kütləvi məzarlıq aşkarlanıb. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir.

Möhtərəm Prezident cənab İlham Əliyevin 2018-ci il yanvarın 28-də imzaladığı Sərəncama əsasən, 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox guşələrində yaşayan həmvətənlərimiz, diaspor təşkilatları, xaricdəki səfirliklərimiz tərəfindən geniş qeyd olunub. Erməni-bolşevik silahlı dəstələrinin 102 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə KİV-lərdə məqalələr dərc edilir.

**Aynurə NOVRUZOVA,**
**Naftalan şəhər İcra hakimiyyəti başçısı aparatında sənədlərlə və vətəndaşların müraciətləri ilə işin aparıcısı**

# FHN-in avtonəqliyyat vasitələri sahiblərinə müraciəti

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə 5 aprel 2020-ci il tarixindən ölkə ərazisində xüsusi karantin rejiminin tətbiqi və hərəkət məhdudiyyətinin müəyyən olunması avtomobillərdən istifadəni kəskin azaldıb və avtonəqliyyat vasitələri əsasən yaşayış binalarının həyətyanı sahələrində park edilib.

Karantin rejimi daha çox diqqət, hər kəsə qayğı ilə yanaşma, həmrəylik nümayiş etdirmək tələb edir!

Bir çox hallarda pərakəndə şəkildə, binaların girişlərində, avtomobil yollarının hərəkət hissəsində və ya yanğına qarşı su təchizatı sistemlərinin bilavasitə yaxınlığında park edilmiş avtomobillər fövqəladə hadisə zamanı xilasetmə, yanğınsöndürmə və digər iri qabaritli xüsusi təyinatlı avtomobillərin hərəkətinə maneə yaradır, habelə yanğınların söndürülməsi zamanı su hovuzları və hidrantlardan suyun götürülməsini çətinləşdirir, bəzi hallarda isə mümkünsüz edir. Son zamanlar ölkəmizdə baş verən yanğınların təhlili, həmçinin bir sıra xarici ölkələrdə müşahidə olunan yanğınlar məsələ ilə bağlı vaxtında zəruri tədbirlər görməyi tələb edir. Mövcud problem avtomobillərin saxlanılma yerlərində - həyətlərdə, səkilərdə, su hövzələrinin yaxınlığında, hətta onların üstündə və sair kimi yerlərdən uzun müddətli park yeri kimi istifadə halları ilə bəzi avtomobil sahiblərinə əhəmiyyətsiz görünən, harada yer tapıram, orada da saxlayıram, deyərək yolları bağlayan sakinlər özlərinin, ailə üzvlərinin, qonşularının xilası üçün gələn xilasedicilərə ciddi maneə yaradır, onlara müqəddəs, qəhrəmanlıq tələb edən, ən qısa zamanda həyata keçirməli olduqları vəzifələrini yerinə yetirməyə məhdudiyyətlər yaradır və sonradan bundan ciddi fayda verməyən peşmançılıq çəkirlər.

Qeyd olunanları nəzərə alaraq, baş verə biləcək yanğın və digər fövqəladə hadisələr zamanı xilasetmə və yanğınsöndürmə avtomobillərinin, digər iri qabaritli xüsusi təyinatlı texnikaların binaların həyətinə maneəsiz daxil oması, su hovuzları və hidrantlardan rahat istifadə imkanına malik olmaları, döyüş vəziyyətinə gətirilmə üçün tələb olunan normativlərə sığışa bilməsi üçün vətəndaşlardan avtomobillərini yalnız təyin olunmuş yerlərdə, bir-biri ilə ara məsafəsi saxlamaqla park etmələrinin vacibliyini bir daha xatırladırıq.

# Naftalanda koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə dezinfeksiya tədbirləri gücləndirilib



Şəhərdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə profilaktik dezinfeksiya tədbirləri gücləndirilmiş iş rejimində davam etdirilir.

Şəhərin küçə və yolları dezinfeksiyaedici maddələrlə yuyulur, çoxmənzilli yaşayış binalarında, binaların giriş və ətrafında , parklarda, ticarət və xidmət obyektlərində dezinfeksiya işləri mütəmadi olaraq aparılır.

Bir daha vətəndaşlarımızı xususi karantin rejiminin tələblərinə əməl etməyə,özlərinin və ailə üzvlərinin sağlamlığına biganə qalmamağa çağırırıq.

**REDAKTORDAN**

# 2019-cu il yanvar-dekabr aylarında nəqliyyat, informasiya və rabitənin işi haqqında Təhlili məruzə

Ölkə iqtisadiyyatının əsas infrastrukturlatından biri olan nəqliyyat və rabitə sektoru davamlı inkişaf etməklə bütövlükdə iqtisadiyyatın inkişafı üçün güclü faktora çevrilmişdir.

Avtomobil nəqliyyatı ölkə iqtisadiyyatının inkişafında, nəqliyyat kompleksinin infrastrukturunun formalaşmasında, ölkə daxilində və ölkələrarası iqtisadi əlaqələrin tənzimlənməsində əsas rol oynayan nəqliyyat növlərindən biridir.

2019-cu ilin yanvar-dekabr aylarında nəqliyyat sektorunda göstərilmiş xidmətin həcmi keçən ilin muvafiq dövrü ilə müqayisədə 11,5 min manat və ya 4,4 faiz artmışdır.

Cari dövrdə avtomobil nəqliyyatı müəsissələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslərdə daxil olmaqla əvvəlki dövr ilə müqayisədə 1 min ton və ya 1,5 faiz çox yük daşınmışdır.

2019-cu ilin yanvar-dekabr aylarında sərnişin daşınması 1673 min nəfər olmaqla keçən ilin müvafiq dövründən 36 min nəfər və ya 2,2 faiz çoxdur.

| | 2019-cu il yanvar-dekabr | 2018-ci il yanvar-dekabr | 2019-cu il yanvar-dekabr ayları 2018-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| Nəqliyyat sektorunda məhsul buraxılışı, min manat | 271,9 | 260,4 | 104,4 |
| Avtomobil nəqliyyatı ilə yük daşımışdır, min ton | 64 | 63 | 101,6 |
| Avtomobil nəqliyyatı ilə sərnişin daşınmışdır, min nəfər | 1673 | 1637 | 102.2 |

**Poçt xidməti** - Bu sahədə də böyük inkişaf müşahidə olunur. 2019-cu ilin yanvar-dekabr aylarında Naftalan şəhərində 3 poçt şöbəsi mövcuddur ki, bunun 2-si şəhər, 1-i kənd şöbəsidir. Şəhərdə fəaliyyət göstərən poçt müəssisələrinin hər biri komputer avadanlığı ilə təchiz olunmuşdur.

Poçt müəssisələri tərəfindən 2019-cu ildə göndərilən məktub korrespondensiyasının sayı 9933 ədəd, daxil olan 9955 ədəd olmuşdur. 2019-cu ildə göndərilən teleqramların sayı 461, daxil olan isə 258 ədəd olmuşdur. Bu dövr ərzində göndərilən pul baratlarının sayı 3814 ədəd, daxil olan isə 3042 ədəd olmuşdur.

Cari dövürdə göndərilən poçt bağlamalarının sayı 210, daxil olan isə 578 ədəd təşkil etmişdir. Poçtalyonların sayı 2 nəfər olmuşdur.

**İnformasiya və Rabitə**

Ölkə iqtisadiyyatının ən perspektivli infrastrukur sahələri olan informasiya və rabitə sektoru öz inkişaf sürətinə görə digər sahələri qabaqlayaraq fəaliyyətini uğurla davam etdirir.

2019-cu ildə Naftalan şəhəri üzrə 246,6 min manatlıq informasiya və rabitə xidməti göstərilmişdir ki, buda əvvəlki ilin müvafiq dövründən 8.2 faiz çox olmuşdur.

Rabitə sektorunda sürətlə inkişaf edən sahələrdən biri telefon rabitəsidir. Cari dövrdə 3 avtomat telefon stansiyası mövcud olmuşdur. Avtomat telefon stansiyalarının ümumi tutumu 2464 nömrə olmuşdur.

Bu dövr ərzində ümumi istifadədə olan sabit şəbəkə telefonlarının sayı 2133 olmuşdur ki, buda əvvəlki ilin müvafiq dövründən 82 ədəd çox olmuşdur.

2019-cu ildə telefon danışıqları trafikinin həcmi 163,3 min dəq olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 80 min dəq çoxdur.

| | 2019-cı il yanvar-dekabr | 2018-ci il yanvar-dekabr | Artma(+) Azalma(-) |
|---|---|---|---|
| ATS-lər üzrə ümumi tutum, nömrə | 2464 | 2464 | 0 |
| Ümumi istifadədə olan sabit şəbəkə telefonlarının sayı, ədəd | 2133 | 2051 | 82 |

Cari dövrdə informasiya və rabitə müəssisələrində siyahı tərkibində olan işçilərin orta sayı 30 nəfər təşkil etmişdir, bir işçinin orta aylıq nominal əmək haqqı isə keçən illə müqayisədə 14,7 faiz artaraq 455,6 manat təşkil etmişdir.

2019-cu ildə siyahı tərkibində olan işçilərin hesablanmış əmək haqqı fondu 164004 manat təşkil etmişdir.

**Tural MƏMMƏDOV**
**Naftalan Şəhər Statistika İdarəsində Baş-məsləhətçi əvəzi**

# Vətəndaşların nəzərinə!

Respublika ərazisində COVİD-19 koronavirus pandemiyasının qarşısının alınması məqsədilə xüsusi karantin rejimi tətbiq edilmişdir. Rejimin tətbiqi dövründə vətəndaşlar daha çox evlərində vaxt keçirirlər. Bu səbəbdən də enerji daşıyıcılarına tələbatdan istifadə halları çoxalmışdır. Yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə aşağıdakı zəruri bilgiləri nəzərinizə çatdırırıq:

1. Elektrik xətlərini və uzadıcılarını həddindən artıq yükləmək təhlükəlidir.
2. Qeyri-standart elektrik qızdırıcılarının istismar olunması qadağandlr və istifadəsi yanğın hadisələrinin baş verməsinə səbəb olur.
3. Sonluqları izolə edilməmiş elektrik naqillərini və məftilləri gərginlik altında saxlamaq yanğın təhlükəsi yaradır.
4. Elektrik lövhələrinə müdaxilə yolverilməzdir. Təmir işlərinə ehtiyac yaranarsa, mütəxəssislərə müraciət edin.
5. Elektrik qızdırıcılarını pərdə və digər yanar materialların yanında yerləşdirmə yanğın təhlükəsi yaradır.
6. Yatarkən, yaxud evi tərk edərkən məişət cihazlarını şəbəkədən ayırın.
7. Yanan qaz sobasını nəzarətsiz qoymayın.
8. Qaz sobalarının üzərində paltar qurutmaq, digər yanar materialdan olan əşyaları sobanın yaxınlığında yerləşdirmək yanğın təhlükəsi yaradır.
9. Qaz cihazlarından istifadə edərkən pəncərənin nəfəsliyi açıq olmalı, mənzili tərk etdikdə isə qaz cihazlarının nəzarətsiz qalmaması üçün mütləq söndürülməlidir.
10. Yaşadığınız ünvanda yanğın və digər fövqəladə hadisələr baş verən zaman iri qabaritli yanğınsöndürmə texnikalarının və digər xüsusi təyinatlı avtomobillərin binaya sərbəst yaxınlaşması, həmçinin yanğın su hovuzlarından və hidrantlarından hadisə vaxtı istifadəyə məhdudiyyət yaratmaması məqsədilə avtomobilinizi əsas yollarda və keçidlərdə saxlamayın.

**Unutmayın, qaydalara biganəlik həyatımıza təhlükədir**
**Təhlükə zamanı 112-yə zəng edin**

Fövqəladə Hallar Nazirliyi
Dövlət Yanğın Nəzarəti Xidməti

# ALLAH RƏHMƏT ELƏSİN

Naftalan şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və aparatının kollektivi iş yoldaşları Rəhim Muradova, atası

**SƏDRƏDDİN MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

REDAKTOR:
Əliyeva Aytən Həbib qızı

Qəzet ayda bir dəfə çıxır

Ünvan: Naftalan şəhəri, Şıxəli Qurbanov küçəsi 1.
Telefon: (022) 352-14-55
ayten_aliyeva.1986@mail.ru

Qəzet "Mingəçevir Poliqrafiya Müəssisəsi" MMC-də ofset üsulu ilə çap edilmişdir.
Dizayner: Rübabə Mustafayeva

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər
Tiraj: 500